İPƏK YOLU, No.4, 2025, səh.191-198
https://doi.org/10.30546/SI.2025.4.6.551

# 60-CILAR NƏSRİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA YENİ QƏHRƏMAN TİPİNİN VƏ ESTETİK YENİLƏNMƏNİN ƏSAS MƏRHƏLƏSİ KİMİ

**Aynur Həsənova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: aynur.hasanova@au.edu.az

**Xülasə.** Müasir Azərbaycan ədəbiyyatında 60-cılar nəsri yeni bir ədəbi mərhələnin başlanğıcını qoymuş və milli mədəniyyət tarixində əhəmiyyətli dönüş nöqtəsi olmuşdur. Anar və Elçin kimi görkəmli yazıçıların yaradıcılığı əsasında 60-cı illər nəsrinin ideya-estetik xüsusiyyətlərinin təhlil edilməsi, milli ədəbiyyatımızda bu mərhələnin rolu və müasir dövr üçün əhəmiyyəti tədqiq edilməli olan mühüm ədəbi məsələlərdən biridir.

**Açar sözlər:** 60-cılar nəsri, Anar, Elçin, fərdi üslub, psixoloji dərinlik, milli ənənə, ədəbi proses.

**THE PROSE OF THE "SIXTIERS" REPRESENTS A KEY STAGE IN THE DEVELOPMENT OF A NEW HERO TYPE AND AESTHETIC RENEWAL IN AZERBAIJANI LITERATURE**

**Aynur Hasanova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The prose of the "Sixtiers" in modern Azerbaijani literature marked the beginning of a new literary stage and became a significant turning point in the history of national culture. Analyzing the ideological and aesthetic features of the 1960s prose through the works of prominent writers such as Anar and Elchin and evaluating the role of this period in national literature and its relevance for the present, constitutes one of the important issues of literary studies.
**Keywords:** Sixtiers prose, Anar, Elchin, individual style, psychological depth, national tradition, literary process.

**ПРОЗА "ШЕСТИДЕСЯТЫХ" КАК ОСНОВНОЙ ЭТАП ФОРМИРОВАНИЯ НОВОГО ТИПА ГЕРОЯ И ЭСТЕТИЧЕСКОГО ОБНОВЛЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ**

**Айнур Гасанова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** Проза «шестидесятых» в современной азербайджанской литературе положила начало новому литературному этапу и стала важным поворотным моментом в истории национальной культуры. Анализ идейно-эстетических особенностей прозы 1960-х годов на основе творчества таких выдающихся писателей, как Анар и Эльчин, а также определение роли этого периода в национальной литературе и его значения для современности является одной из важных задач литературоведения.
**Ключевые слова:** Проза шестидесятых, Анар, Элчин, индивидуальный стиль, психологическая глубина, национальная традиция, литературный процесс.

## 1. Giriş

Azərbaycan ədəbiyyatı tarixində 60-cılar nəsrinin rolu yalnız bir ədəbi mərhələnin sərhədləri ilə məhdudlaşmır. Onların yaradıcılığı bütövlükdə milli mədəniyyətin inkişaf trayektoriyasına təsir etmiş, ədəbiyyatın ictimai və estetik funksiyalarını yeni səviyyəyə yüksəltmişdir. 60-cılar nəsri, əvvəlki onilliklərdə hökm sürən sosialist realizminin məhdud çərçivələrini aşaraq, fərdin daxili dünyasına, psixoloji təbəqələrinə, fərd-cəmiyyət münasibətlərinin mürəkkəb ziddiyyətlərinə diqqət yönəltmişdir. Bu baxımdan, onların əsərləri

yalnız bədii-estetik hadisə deyil, həm də ictimai-sosial gerçəkliklərin ədəbi təhlili kimi dəyərləndirilə bilər.

Tədqiqatda müqayisəli-tarixi və ədəbi-nəzəri təhlil metodlarından istifadə olunmuşdur. Material bazasını Anar və Elçinin 1960-cı illər nəsrinə aid hekayə, povest və romanları, həmçinin dövrün ədəbi-tənqidi mənbələri təşkil edir.

Tədqiqatın məqsədi 60-cılar nəsrində yeni qəhrəman tipini, estetik yenilənməni və bu mərhələnin milli ədəbiyyatdakı rolunu araşdırmaqdır. Vəzifələrə ideya-estetik xüsusiyyətlərin təhlili, fərd-cəmiyyət münasibətlərinin yeni bədii modelinin müəyyənləşdirilməsi və janr-lirik xüsusiyyətlərin dəyərləndirilməsi daxildir.

Tədqiqatın predmetini 1960-cı illər Azərbaycan nəsrində yeni qəhrəman tipi, lirizm, psixoloji dərinlik və janr-estetik yeniliklərin Anar və Elçin yaradıcılığı əsasında ədəbi təhlili təşkil edir.

60-cılar nəsri milli folklorun, maarifçi ədəbiyyatın və "Molla Nəsrəddin" məktəbinin təsiri ilə formalaşmışdır. Bu ənənələrin davamı olaraq, əsərlərdə milli dəyərlərin qorunması, sosial riyakarlığın tənqidi, insan şəxsiyyətinin daxili azadlıq axtarışları xüsusi yer tutur. Əvvəlki ədəbiyyatda hökm sürən mütləq müsbət qəhrəman konsepsiyası ilə müqayisədə, 60-cıların qəhrəmanları daha çox adi, bəzən qəribə görünən, daxili ziddiyyətlərlə yaşayan fərdlərdir. Onların "qəhrəmanlığı" cəmiyyətin diktə etdiyi ideologiyaya qarşı çıxmaqdan çox, öz mənəvi bütövlüyünü qorumağa yönəlmişdir.

60-cılar nəsrinin ədəbi-estetik xüsusiyyətlərini sistemli şəkildə araşdırmaq, Anar və Elçin yaradıcılığı əsasında bu dövrün bədii məzmununu dəyərləndirmək xüsusi əhəmiyyət kəsb edir. Təhlil aparılarkən əsərlərin janr xüsusiyyətləri, lirizmin nəsrdəki yeri, fərd-cəmiyyət konfliktləri, həmçinin psixoloji dərinliyin bədii ifadəsi geniş şəkildə işıqlandırılmalıdır.

Azərbaycan ədəbiyyatı tarixində 60-cılar nəsri xüsusi bir mərhələ kimi qiymətləndirilir. Bu nəsil sovet ideoloji basqılarının hökm sürdüyü bir zamanda meydana çıxaraq, həm milli ənənəyə söykənmiş, həm də yeni estetik prinsiplər ortaya qoymuşdur. Onların əsərləri milli ədəbi düşüncənin təbii inkişaf xəttini davam etdirməklə yanaşı, sovet ədəbiyyatında hökm sürən stereotiplərə qarşı çıxmaqla fərqlənirdi.

Ədəbiyyatşünasların qənaətinə görə 60-cılar nəsri boş yerə yaranmamış, öz ədəbi qaynaqlarına istinad etmişdir. Bu qaynaqlar arasında ilk növbədə milli folklor, xüsusilə hekayə, rəvayət və dastan janrları mühüm yer tutur. Eyni zamanda XIX-XX əsr maarifçi yazıçılarının əsərləri, realizm və tənqidi realizm ənənələri də 60-cıların yaradıcılığında güclü şəkildə hiss olunur. Xüsusilə "Molla Nəsrəddin" ədəbi məktəbinin təsiri onların yaradıcılıq üslubunun formalaşmasında mühüm rol oynamışdır. Mirzə Cəlil və Əbdürrəhim bəy Haqverdiyev kimi müəlliflərin satirik və realist yaradıcılığı 60-cılar nəsrində yeni bir bədii-estetik müstəvi yaratmışdır. Bu nəslin yaradıcılığı sosialist realizminin təsdiqedici pafosundan uzaq idi. Əgər əvvəlki dövrlərdə ədəbiyyatda yalnız müsbət qəhrəmanların təsviri və ideologiyaya uyğun təbliğat əsas götürülürdüsə, 60-cılar nəsri əksinə, cəmiyyətdəki riyakarlığın, saxtakarlıqların,

ziddiyyətlərin inkarına yönəlmişdi. Burada, əsasən, tənqidi realizm ön plana çıxır, qəhrəmanların daxili aləminin təhlili aparılırdı.

60-cılar nəsrində ən mühüm yeniliklərdən biri yeni qəhrəman tipinin meydana çıxmasıdır. Bu qəhrəmanlar əvvəlki sovet ədəbiyyatında olduğu kimi ideologiyanın daşıyıcısı və ya nümunəvi ictimai fəal insanlar deyildi. Onların mübarizəsi açıq siyasi səciyyə daşımır, daha çox mənəvi bütövlük və fərdi azadlıq uğrunda idi. Məsələn, Anarın "Asılqanda", "Mən, sən, o və telefon" kimi hekayələrində qəhrəmanların fərdi hissləri ilə ictimai basqılar arasında yaranan konflikt açıq şəkildə görünür.

60-cıların nəsrində diqqətçəkən əsas cəhətlərdən biri psixoloji dərinlikdir. Bu nəsil insan ruhunun dərin qatlarını, gizli psixoloji prosesləri, daxili ziddiyyətləri təsvir etməyə xüsusi önəm vermişdir. Əsərlərdə xarakterlərin psixoloji vəziyyəti, daxili monoloqlar, emosional gərginliklər ön plana çəkilmişdir. Bu da əvvəlki dövrün şablon qəhrəmanlarından tamamilə fərqli bir bədii-estetik təsir yaradırdı [8; 9]. Bundan başqa, 60-cılar nəsri lirizmlə zəngindir. Əsərlərdə emosional təsir gücü, hisslərin toqquşması və fərdi duyğuların dərin poetik təsviri əsas yer tutur. Bu lirizm əsərlərə xüsusi bir təravət və səmimiyyət bəxş etmiş, oxucu ilə emosional ünsiyyət yaratmışdır.

60-cı illər ədəbiyyatında yeni qəhrəman və yeni konfliktin meydana çıxması həmin dövrdəki ictimai-mədəni şəraitlə bağlı idi. *"Sovet ideologiyasının yaratdığı "nümunəvi qəhrəman" konsepsiyasının əksinə olaraq, yazıçılar insanın daxili tənhalığını, cəmiyyətin onu anlamamasını, fərdin şəxsi xoşbəxtlik axtarışlarını ön plana çəkmişdilər"* [5]. Bu, həm də ədəbi üslubda fərdiləşməni, yazıçıların özünəməxsus yaradıcılıq yolunu axtarmasını təmin etmişdir. Beləliklə, 60-cılar nəsri Azərbaycan ədəbiyyatında bədii-estetik baxımdan yeni mərhələ yaratmış, sovet ədəbiyyatının doqmatik qaydalarını dağıdaraq fərdi üslub, lirizm, psixoloji dərinlik və yeni qəhrəman obrazı ilə milli ədəbiyyatın inkişafında mühüm rol oynamışdır. *"Belə bir cəhəti qeyd etmək lazımdır ki, bədii ədəbiyyatda qəhrəman problemi bütün zamanlarda ədəbiyyatın baş problemi olmuşdur. Təbii ki, indiki halda bu problemə geniş elmi-nəzəri münasibətə ehtiyac yoxdur. Lakin yalnız onu demək istəyirik ki, müxtəlif dövrlərdə bu problemə münasibət zamanın doğurduğu tələblərlə şərtlənmişdir. Dövr, ictimai-siyasi şərait ədəbi qəhrəmanın bədii inikasının xarakterinə də öz təsirini göstərir və bunu etiraf etmək lazımdır. Əgər XIX əsrin maarifçi qəhrəman tipi dövrün mənəvi-sosial tipi kimi meydana çıxmışdısa, XX əsrin əvvəllərindəki qəhrəmanlar daha çox ictimai əhval-ruhiyyənin ifadəçisi kimi meydana çıxırdılar"* [2, s.52].

## 2. Anar yaradıcılığında 60-cı illər nəsri

Azərbaycan ədəbiyyatının müasir mərhələsində Anar yaradıcılığı 60-cılar nəsrinin ideya-estetik xüsusiyyətlərini özündə ən dolğun ifadə edən nümunələrdəndir. O, yalnız yazıçı deyil, həm də dramaturq, ssenarist, publisist, mədəniyyət xadimi kimi çoxşaxəli fəaliyyət göstərmiş, lakin ilk növbədə nasir kimi ədəbi prosesdə böyük nüfuz qazanmışdır.

Anarın ədəbi fəaliyyətinin başlanğıcını hekayələr təşkil edir. Onun ilk hekayələrindən etibarən 60-cılar nəsrinə xas olan əsas cəhətlər, fərdi aləmə yönəliş, psixoloji dərinlik, lirizm və daxili konfliktlərin təsviri aydın şəkildə müşahidə olunur. "*Asılqanda işləyən qadının söhbəti", "Mən, sən, o və telefon", "Dantenin yubileyi", "Gürcü familiyası*" kimi hekayələr Azərbaycan nəsrinə yeni bir estetik nəfəs gətirmişdir. Bu hekayələrdə təsvir olunan qəhrəmanlar adi insanlardır, cəmiyyətin yaratdığı şablon qəhrəmanlardan fərqli olaraq, daxili təlatümlərlə yaşayan, qəribə görünən, tənhalığı və ziddiyyətləri ilə seçilən fərdlərdir. Hekayələrin lirizmlə zəngin olması, fərdi hisslərin bədii-estetik əsas kimi önə çəkilməsi Anarın yaradıcılığının əsas fərqləndirici xüsusiyyətlərindəndir [1].

Anar yalnız lirizm və psixoloji dərinliklə kifayətlənməmiş, eyni zamanda cəmiyyətin riyakarlığını və totalitar ideologiyanın saxtakarlıqlarını tənqid edən əsərlər də qələmə almışdır. "*Yaxşı padşahın nağılı", "Yaşasın söz azadlığı"* kimi hekayələrdə folklorvari motivlər və alleqorik üslub vasitəsilə sovet ideologiyasının satirik parodiyası yaradılmışdır. *"Molla Nəsrəddin - 66-cı" və "Molla Nəsrəddin - 86-cı"* kimi əsərləri isə satirik ənənənin müasir dövrdə davam etdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu əsərlərdə xalq yumoruna əsaslanan, sosial qüsurları incəliklə ifşa edən üslub Anarın yaradıcılığını klassik Azərbaycan satirik ədəbiyyatı ilə bağlayır.

Anarın povest və romanları 60-cılar nəsrinin bədii-estetik keyfiyyətlərini tam şəkildə əks etdirir. "*Ağ liman*" povesti Azərbaycan gəncliyinin daxili təlatümlərini, cəmiyyətlə toqquşan duyğularını bədii təsvir etmiş və bir nəsil üçün əsl hadisəyə çevrilmişdir. Buradakı qəhrəmanlar, Nemət və Təhminə qəribə, adi görünməyən, cəmiyyətin qəbul etmədiyi fərdlər kimi təqdim olunurlar. Bu əsərdə fərdin daxili aləmi ilə ictimai mühit arasındakı ziddiyyət açıq şəkildə ifadə olunmuşdur. Sonrakı "*Beşmərtəbəli evin altıncı mərtəbəsi*" romanı isə Anarın yaradıcılığında psixoloji dərinliyin və fəlsəfi baxışın daha geniş şəkildə təcəssümüdür. Burada insanın daxili azadlıq axtarışları ilə ictimai məhdudiyyətlər arasındakı qarşıdurma, sevgi və ictimai rəyin ziddiyyəti bədii konfliktin əsasını təşkil edir. Zaur və Təhminə obrazları milli ədəbiyyatımızda fərd-cəmiyyət münasibətlərinin dramatik təcəssümü kimi dəyərləndirilir. "*Dantenin yubileyi", "Gürcü familiyası*" və digər əsərlər də adi insanların taleyini, daxili ziddiyyətlərini poetik şəkildə təqdim edir. Bu əsərlərdə cəmiyyətin despotik mahiyyəti ilə fərdi azadlıq arzusu arasında yaranan konflikt Anar yaradıcılığının aparıcı xəttinə çevrilmişdir [7].

Anarın yaradıcılığında janr sərhədlərinin aşılması, hekayə ilə povest, povestlə roman arasında sintez diqqəti cəlb edir. Bu janr sinkretizmi əsərlərin daha zəngin və çoxqatlı mənalandırılmasına xidmət edir. Realist təsvirlərlə yanaşı, fantastika, mistika və alleqorik elementlərin də işlənməsi Anarın əsərlərinə çoxcəhətli poetik məna qazandırmışdır. Yazıçı klassik ənənələrdən bəhrələnməklə yanaşı, modern təhkiyə üsullarını və eksperimental formaları da ustalıqla birləşdirir. Onun əsərlərində retrospektiv və paralel süjet xətləri, müəllifin və personajın səsi arasında keçidlər, daxili monoloqlar və simvolik obrazlar bədii mətnin çoxqatlı strukturunu formalaşdırır.

Anar həm mövzu seçimi, həm də təhkiyə texnikası baxımından Azərbaycan nəsrində yenilikçi istiqamətin əsas nümayəndələrindən biridir. Onun əsərlərində bədii zaman və məkanın elastikliyi, subyektiv və obyektiv reallıqların bir araya gətirilməsi oxucuda həm estetik, həm də fəlsəfi müstəvidə dərin təsir yaradır. Bu xüsusiyyətlər Anarın yaradıcılığını yalnız 60-cılar nəslinin deyil, ümumilikdə müasir Azərbaycan ədəbiyyatının ideya-estetik axtarışlarının avanqard nümunələrindən birinə çevirir.

Anar yalnız yazıçı kimi deyil, həm də təşkilatçı və mədəniyyət xadimi kimi Azərbaycan ədəbiyyatında mühüm rol oynamışdır. Onun rəhbərliyi ilə nəşr olunan "*Qobustan*" jurnalı ədəbi prosesdə mühüm hadisə olmuş, milli ədəbiyyatın inkişafında yeni istiqamətlər açmışdır. Həmçinin Azərbaycan Yazıçılar Birliyinin uzunmüddətli sədri kimi də milli ədəbiyyatın qorunması və inkişafına əhəmiyyətli töhfələr vermişdir. Ümumiyyətlə, Anarın yaradıcılığı 60-cılar nəsrinin əsas bədii xüsusiyyətlərini, lirizm, psixoloji dərinlik, fərdi üslub, satirik yanaşma və janr sintezini özündə birləşdirərək Azərbaycan nəsrində yeni bir mərhələnin formalaşmasına səbəb olmuşdur. Onun əsərləri fərd-cəmiyyət konfliktini, azadlıq axtarışını və mənəvi bütövlüyün bədii ifadəsini ortaya qoymaqla milli ədəbiyyatımızın zənginləşməsinə böyük töhfə vermişdir.

### 3. Elçin yaradıcılığında 60-cı illər nəsri

Azərbaycan ədəbiyyatında 60-cılar nəslinin görkəmli nümayəndələrindən biri də Elçindir. Onun yaradıcılığı həm nəsr, həm dramaturgiya, həm də publisistika sahələrini əhatə etsə də, əsasən, nasir kimi tanınmış və ədəbi prosesdə xüsusi mövqeyə sahib olmuşdur. Elçin ədəbiyyata gənc yaşlarından gəlmiş, ilk hekayələri ilə diqqət çəkmiş və milli nəsrin yeni istiqamətinə töhfə vermişdir.

Elçinin hekayələri, əsasən, insanın daxili aləmini, şüuraltı proseslərini, fərdi ziddiyyətlərini təsvir etməyə yönəlmişdir. Bu xüsusiyyətlər onun yaradıcılığını 60-cılar nəsrinin ümumi ideya-estetik xətti ilə birləşdirir. *"Baladaşın ilk məhəbbəti", "Sarı pencək", "Bir beşqəpiklik motosikl", "Qırmızı ayı balası", "On ildən sonra", "Günlərin bir günündə", "Qış nağılı"* və digər hekayələrdə insanın daxili və zahiri aləmi arasındakı konfliktlər, şəxsiyyətin mənəvi bütövlüyünü qoruma mübarizəsi diqqət mərkəzindədir [3]. Bu əsərlərdə qəhrəmanların sosial statusu ilə onların daxili mahiyyəti arasında ziddiyyətlər açılır. Yazıçı göstərir ki, insan cəmiyyətdə qəbul olunmuş rollara uyğunlaşmağa məcbur olur, lakin onun daxili "mən"i ilə kənar mühit arasında kəskin konflikt yaranır. Elçinin qənaətinə görə, əsl mənəvi qəhrəmanlıq insanın daxili aləmini təsdiq etməsi, zahiri şəraitin diktəsinə qarşı öz mənini qorumasıdır.

Elçinin yaradıcılığında kino-povestlər xüsusi yer tutur. *"Dolça", "Bir görüşün tarixçəsi", "Toyuq diriliyini saxladı*" kimi əsərlərdə riyakar və mənasız mühitin ifşası, insani dəyərlərin tapdalanması, fərdin alçaldılması bədii dillə təqdim olunur. Buradakı qəhrəmanlar çox vaxt "*alçaldılmış və təhqir edilmiş*" insanları xatırladır. Elçin bu obrazlar vasitəsilə

cəmiyyətin mənəvi böhranını açır, oxucunu mənəvi katarsisə - sarsılaraq dəyişməyə səsləyir [4].

Elçin Azərbaycan romanının inkişafında da mühüm rol oynamışdır. Onun *"Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü*" romanları həm mövzu, həm də fəlsəfi məzmun baxımından diqqəti cəlb edir.*"Mahmud və Məryəm"* əsəri klassik Əsli-Kərəm süjetinə yeni fəlsəfi məna qazandırmışdır. Yazıçı burada azadlıq və zərurət, insanın sərbəstliyi və asılılığı kimi fundamental problemləri ortaya qoyur. Əsərin qəhrəmanlarının taleyi insanın mənəvi bütövlüyünü qorumaq uğrunda mübarizənin faciəli nəticələrini əks etdirir.*"Ölüm hökmü"* və *"Ağ dəvə"* romanlarında isə sovet dövrünün sosial-siyasi gerçəklikləri, represiyalar, insanın mənəviyyatına vurulan zərbələr bədii təhlil olunur. Bu əsərlər fərdin mənəvi azadlığını qorumaqla cəmiyyətin sərt ideoloji təzyiqlərinə qarşı çıxmağın ədəbi ifadəsidir [7, s.126].

Elçinin dramaturgiyası da 60-cılar nəsrinin estetik prinsiplərini dolğun şəkildə əks etdirir. Onun pyeslərində insanın daxili aləminin dramatizmi, cəmiyyətlə konfliktləri, mənəvi seçimləri və dəyərlər sistemi ön plana çəkilir. Yazıçının dramaturgiyası klassik süjet modellərindən uzaqlaşaraq psixoloji dərinliyə və mənəvi dilemmaların bədii təsvirinə üstünlük verir. Əsərlərində qəhrəmanlar stereotip obrazlar deyil, daxili ziddiyyətlərlə yaşayan, mövcud ictimai münasibətlər sistemində öz yerini və mənəvi mövqeyini axtaran fərdlərdir. Bu xüsusiyyət Elçinin dramaturgiyasını həm tematik, həm də struktur baxımından dövrünün ən yenilikçi ədəbi nümunələrindən birinə çevirir.

Elçinin həm dramaturq, həm də dövlət xadimi kimi fəaliyyəti milli ədəbiyyatın inkişafına əhəmiyyətli təsir göstərmişdir. O, uzun illər mədəniyyət və ədəbiyyat sahəsində müxtəlif məsul vəzifələrdə çalışaraq ədəbi prosesin idarə olunmasında və istiqamətləndirilməsində aktiv rol oynamışdır. Onun təşəbbüsü və dəstəyi ilə bir sıra yazıçıların əsərləri beynəlxalq sərgilərdə, ədəbi festivallarda təqdim edilmiş, Azərbaycan ədəbiyyatının dünyaya tanıdılmasında mühüm addımlar atılmışdır. Yazıçının əsərlərinin müxtəlif dillərə tərcümə edilməsi həm onun fərdi yaradıcılıq uğurunu, həm də 60-cılar nəslinin estetik və ideya potensialının universallığını nümayiş etdirmişdir.

Elçinin yaradıcılığının əsas ideya xəttini fərd və cəmiyyət münasibətləri təşkil edir. Onun qəhrəmanları çox vaxt daxili ziddiyyətlərlə yaşayan, cəmiyyətin saxta və riyakar qaydalarını qəbul etməyən, mənəvi bütövlüyünü qorumağa və öz "mən"ini təsdiq etməyə çalışan insanlardır. Yazıçı zahiri və daxili aləm arasındakı uçurumu, insanın cəmiyyət içindəki mənəvi tənhalığını bədii konfliktin mərkəzinə çevirir və oxucunu mənəvi mühakiməyə, mövcud sistemin dəyərlərini sorğulamağa dəvət edir. Elçinin dramaturgiyasında dialoqların fəlsəfi çalarlar qazanması, simvolik məna daşıyan obrazlar sisteminin qurulması və teatr dilinin modernləşdirilməsi onun 60-cılar nəsrinin estetik axtarışlarını səhnə sənətinə uğurla gətirdiyini göstərir. Bu mənada Elçin həm nəsrdə, həm də dramaturgiyada fərdi şüurun və azad düşüncənin bədii ifadəsini önə çəkən, ədəbiyyatın yeni mərhələsinə istiqamət verən aparıcı simalardan biridir. Beləliklə, Elçin yaradıcılığı 60-cılar nəsrinin əsas istiqamətlərini davam etdirmiş, eyni

zamanda onu yeni bədii-fəlsəfi axtarışlarla zənginləşdirmişdir. *"Onun əsərləri insanın daxili aləmi, fərd-cəmiyyət ziddiyyətləri, mənəvi seçimlər və azadlıq ideyaları ilə Azərbaycan nəsrinin inkişafına böyük təsir göstərmişdir"* [10, s.29].

Ümumilikdə, 60-cılar nəsri Azərbaycan nəsrində: *yeni qəhrəman tipini* - adi, lakin mənəvi bütövlüyü ilə seçilən fərdi; *psixoloji dərinliyi* - insanın daxili aləminin və şüuraltı proseslərinin təsvirini; *lirizmi* - hisslərin bədii-estetik əsas kimi önə çəkilməsini; *tənqidi realizmi* - cəmiyyətin saxta ideoloji prinsiplərinin ifşasını; *janr sintezini* - hekayə, povest və roman arasında sərhədlərin zəifləməsini ortaya qoymuşdur [6, s.34]. Bütün bu xüsusiyyətlər Azərbaycan nəsrində modern ədəbi-estetik prinsiplərin formalaşmasına və milli ədəbiyyatın yeni istiqamətdə inkişafına səbəb olmuşdur. 60-cıların nəsli həm milli mədəniyyət tariximizin mühüm mərhələsi, həm də müasir Azərbaycan ədəbiyyatının təməl sütunlarından biri kimi dəyərləndirilməlidir. Bu nəsil sovet ideoloji sisteminin hələ tam aradan qalxmadığı bir dövrdə bədii düşüncəyə yeni nəfəs gətirmiş, ədəbiyyatın sosialist realizmi çərçivəsindən çıxaraq insan psixologiyasına, mənəvi ziddiyyətlərə və fərdi talelərə yönəlməsini təmin etmişdir. Anar, Elçin, İsa Hüseynov, İmran Qasımov kimi yazıçıların yaradıcılığı süjet və kompozisiya baxımından daha mürəkkəb strukturların, simvolik təsvirlərin və çoxqatlı obrazların meydana çıxmasına şərait yaratdı. Onların əsərlərində gündəlik həyat hadisələri dərin fəlsəfi və estetik məna kəsb edir, fərdi mövqe ilə ictimai mühit arasındakı qarşıdurmalar yeni bədii ifadə vasitələri ilə təqdim olunurdu. 60-cı illərin nəsrində estetik fərdiləşmə, təhkiyənin subyektivləşməsi, daxili monoloqların və retrospektiv təhkiyə üsullarının geniş tətbiqi ədəbi prosesin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərirdi. Bu nəsil həm ideoloji sistemin yaratdığı məhdudiyyətlər daxilində estetik yeniliklərə yol açmış, həm də sonrakı onilliklərdə müstəqil ədəbiyyatın formalaşması üçün möhkəm bədii zəmin yaratmışdır.

**Nəticə.** Azərbaycan ədəbiyyatında 60-cılar nəsri yeni bir yaradıcılıq mərhələsi olmaqla yanaşı, milli mədəniyyətin inkişafında mühüm dönüş nöqtəsi olmuşdur. Bu nəsil sosialist realizminin sərt çərçivələrini dağıdaraq fərdi üslub, psixoloji dərinlik, lirizm və fərd-cəmiyyət münasibətlərinin bədii ifadəsi ilə seçilmişdir. Onların yaradıcılığı milli folklor, maarifçi realizm və "Molla Nəsrəddin" ədəbi məktəbinin təsiri ilə formalaşaraq milli kimliyin qorunması ideyasını daşıyırdı. Anar lirizmlə zəngin hekayə və povestləri, satirik yanaşmaları və janr sintezi ilə nəsrə yeni poetik nəfəs gətirmiş, fərdin daxili aləmini və azadlıq axtarışlarını önə çıxarmışdır. Elçin isə psixoloji dərinlik və bədii konflikt vasitəsilə azadlıq, insan-cəmiyyət münasibətləri və mənəvi seçim kimi fundamental problemləri ədəbiyyata gətirmişdir.

## Ədəbiyyat

1. Anar (2004), Seçilmiş Əsərləri. Bakı, Lider, 416.
2. Bayramova N. (2003), Elçin Nəsrinin Poetikası. Bakı, Ozan, 183.
3. Elçin (2005), Seçilmiş Əsərləri (10 cilddə), 1-ci cild. Bakı, Çinar-Çap, 626.
4. Elçin (2005), Seçilmiş Əsərləri (10 cilddə), 2-ci cild. Bakı, Çinar-Çap, 523.
5. Qarayev Y. (1980), Realizm: Sənət və Həqiqət. Bakı, Elm.

6. Məmmədli C. (2025), 60-cılar Nəsrinin Poetikası. Bakı, Mumta yayımları.
7. Məmmədov A. (1981), Ədəbi-Bədii Tənqid və Ədəbiyyatşünaslıq. Bakı, Yazıçı.
8. Salamoğlu T. (2014), Azərbaycan Ədəbiyyatının Müasir Problemləri. Bakı, 512.
9. Salamoğlu T. (2021), XIX Əsrin Sonu, XX Əsrin Əvvəlləri Azərbaycan Ədəbiyyatının Aktual Problemləri. Bakı, Elm və təhsil, 664.
10. Seyidov Y. (2012), Elçin. Bakı, 324.